**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Vüqar Əliyevin 24 dekabr 2009-cuil tarixli 100 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Lerik rayonu, Molalan kənd sakini Vüqar Əliyevin yazılı müraciəti 24 dekabr 2009-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuşdur.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirərək, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, müraciətdə tələb aydın göstərilməmişdir və bu səbəbdən də ekspert qrupunun üzvü şikayətin geri qaytarılması barədə rəy vermişdir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin müraciətin ilkin olaraq nəzərədən keçirir. Bu zaman ekspert müraciətin Seçki Məcəlləsi və Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Müraciətlərə dair ümumi tələblər "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 2-ci bəndində müəyyən olunmuşdur. Həmin Təlimatın 2.1.9-cu bəndinə görə, müraciətdə şikayətçinin tələbi göstərilməlidir. Habelə Təlimatın 2.5-ci bəndinə əsasən əgər tələb yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, müraciət onu göndərən şəxsə geri qaytarılmalıdır. Ona görə də, müraciətdə tələb aydın olmadığından, müraciət mahiyyəti üzrə araşdırılmadan geri qaytarılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1.1-ci, 2.1.9-cu, 2.5-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Vüqar Əliyevin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 100 saylı müraciətində tələb aydın olmadığından, müraciət ərizəçiyə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Natiq Məmmədov

| | |
|---|---|
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |